DÜNYA XƏBƏRLƏRİ

Rusiya Qara dənizdə hərbi yük gəmisini vurduğunu bildirir

Noyabr 27, 2026



Qara dənizdə yük gəmisi

Rusiya Müdafiə Nazirliyi noyabrın 27-də Qara dənizdə hərbi yük daşıyan gəmini vurduğunu açıqlayıb.

Nazirlik həmçinin Xmelnitski və Zaporojye vilayətlərində Ukrayna ordusunu təchiz edən zavodlara, eləcə də Kiyev yaxınlığındakı logistika mərkəzinə zərbələr endirdiyini bildirib.

Rusiyanın Qara dəniz sahilində yerləşən Novorossiysk liman şəhərinə dron hücumu isə üç nəfərin ölümünə səbəb olub. Şəhərin meri **Andrey Kravçenko** Telegram-da yazıb ki,

hücum zamanı üç yaşayış evinə və bir qazanxanaya ziyan dəyib.

Novorossiysk neft və taxıl ixracı mərkəzi olmaqla yanaşı, Rusiyanın Qara dəniz donanmasının əsas bazalarından biridir.

Rusiyanın Ukraynaya zərbələrindən ölən və yaralananlar var

Noyabrın 27-nə keçən gecə Rusiya qoşunları Ukraynanın Xarkov, Dnepropetrovsk, Vinnitsa, Jitomir və digər vilayətlərinə hücum edib.

İzyumda endirilən zərbələr nəticəsində altı nəfər yaralanıb, bir neçə binaya ziyan dəyib. Xarkovun Şevçenko rayonunda isə üç nəfər xəsarət alıb.

Krivoy Roqda bir nəfər həlak olub. Nikopolda yaralanan iki kişi ağır vəziyyətdə xəstəxanaya çatdırılıb. Hücum zamanı bir müəssisə və çoxmərtəbəli yaşayış binası da zədələnib.

Vinnitsa, Jitomir və Kirovoqrad vilayətlərində də infrastruktur obyektlərinə zərbələr endirilib.

Ukrayna Silahlı Qüvvələrinin məlumatına görə, Rusiya gecə ərzində ölkə ərazisinə 155 dronla hücum edib, onlardan 110-u hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur